# Mehriban Əliyeva:
# Mən Əliyevlərin ailəsinə üzv olanda birinci kurs tələbəsiydim...







...Heydər Əliyev dərslərinin mahiyyətini onun həmyaşıdları bu gün də öyrənirlər. Heydər Əliyev tarixi salnaməsinin XX əsr üçün taleyüklü səhifələrinin iştirakçısı, yaradıcısı, aparıcısı, 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran vətəndaş, şəxsiyyət, liderdir. Vətənin Azərbaycanın taleyi, onun adı, taleyi ilə əbədi olaraq bağlandı...

...Mən Heydər Əliyev ailəsinin üzvü olanda birinci kursda oxuyurdum, deməli 20 ildən artıq bir müddətdə bir çox amillər formalaşmış, daim kütləvilik elementi olan mühitdə davranış tipini şərtləndirmişdir. Mən 20 il Heydər Əliyev kimi bir insanın ailəsində, yanında yaşamışam. Biz çətin illərində də, xoşbəxt anlarında da onun yanında olmuşuq. Sarsılmaz iradəsi ilə bu insan qalib kimi yaşamış və dünyadan qalib kimi getmişdir. Adamların böyük əksəriyyətindən fərqli olaraq, biz onu təkcə siyasi xadim, dövlət rəhbəri rolunda deyil, həm də adi insan, ailə başçısı, övladlarını sevən ata, baba kimi görmüşük. Mən taleyimə minnətdaram ki, belə bir imkanım olmuşdur. Bu insanla ünsiyyət mənim üçün qeyri-adi bir həyat məktəbi olmuşdur. Ümid edirəm ki, ondan nə isə öyrənə bilmişəm. Mənə son dərəcə ağırdır ki, o nəticələrinin dünyaya gəlməsini görmədi...

...Ulu Öndər Heydər Əliyev müdrik, güclü, cəsarətli, nəhəng intellektə və yenilməz iradəyə malik olan insan idi. Eyni zamanda onun ailə üzvü olaraq demək istərdim ki, o, çox xeyirxah, mərhəmətli və humanist insan idi... Adi insanla münasibətdə o, çox sadə və ədalətli idi”... Heydər Əliyev ailədə gündəlik ünsiyyətdə olduqca sadə idi. Uşaqları, nəvələri ilə onu təkcə qohumluq əlaqələri bağlamırdı. Həddən artıq məşğul olmasına baxmayaraq, onların hər birinə həssas qayğıkeşlik göstərirdi. Ancaq onu müqayisə etmək çox çətindir. Heydər Əliyev



əzəmətli, bənzərsiz şəxsiyyətdir! Xasiyyətinin hansısa cəhətləri, xüsusiyyətləri onun uşaqlarında, nəvələrində yaşayır...

...Heydər Əlirza oğlu haqda çoxlu kitab yazılıb. Lakin, təəssüf ki onların heç biri onun şəxsiyyətinin bütün əzəmətini əks etdirmir. İlk növbədə, əlbəttə ki, Heydər Əlirza oğlu aydın ifadə olunan xarizmaya malik idi. Onun enerjisi ətrafda hər şeyi dəyişməyə qadir idi. Onun gəlişi ilə hər şey dəyişirdi. Onun fantastik yaddaşı, intellekti, hədsiz məlumatlılığı bəzən həlli müşkül görünən problemləri həll etməyə imkan verirdi. Mahiyyət etibarı ilə Heydər Əliyev fenomeni hələ də sonadək açılmayıb. Tarixin sovet dövründə Heydər Əliyev haqqında çox yazırlar, Azərbaycanda sanki ümidsiz görünən vəziyyəti onun necə dəyişə bildiyini, yaxud Heydər Əliyevin necə “hakimiyyət ustası” olduğunu anlamağa çalışırlar. Lakin, bütün bunlar eyni bir adam barədədir. Bu yazılarda liderin həm praqmatik, həm də strateq ola bilməsinin fəlsəfi baxımdan dərk edilməsi çatışmır”. Bu mətndən müasir siyasətşünalıq elmində də Heydər Əliyev məktəbinin dərsləri hər zaman öyrəniləcək və araşdırılacaq bir kursdur.

Xanım Mehriban Əliyeva həm də göstərir ki: “Mən ürəkdən istərdim ki, oğlum öz babasına çox oxşasın. Çox ümid edirəm ki, oğlumuz gələcəkdə babası Ulu Öndər kimi mətin iradə, ruh yüksəkliyinə malik məqsədyönlü, təmkinli, dərin səmimiyyətli olsun... Çox təəssüflənirəm ki, Heydər Əliyev bu günü görmədi, lakin inanıram ki, o da hansı şəkildəsə bizim sevincimizi bölüşür”.

Ulu Öndər milli liderliklə siyasi rəhbərliyi, siyasi liderliklə milli rəhbərliyi inteqrasiya edən fenomen Strateqdir. Ulu öndər unikal və universal bilikli siyasətçi, hər bir azərbaycanlının hamisi, dəstəkçisi, güvənən yeri, qüruru ölkə sərhədlərindən kənarda yaşayan hər bir azərbaycanlının doğması, əzizi idi. Bu onu əbədi dünyaya yola salan milyonların dəfn mərasimində iştirakında, Azərbaycanın hər bir kəndi, qəsəbəsi, rayonu, şəhərində onun adına verilən ehsan məclisləri və oxunan dualarda da özünü əks etdirdi. Ulu öndər ilahidən seçilmişlərin seçilmişi, qüdrətli, öz ölkəsini sevən və “Mən fəxr edirəm ki, azərbaycanlıyam” söyləyən uca insan, siyasi xadim, dövlət qurucusu, qurucu və yaradıcı Rəhbər olmuşdur.

XXI əsrin əvvəlindən isə bu tərəqqi, bu yüksəliş Ulu öndər Heydər Əliyev siyasi kursunun, dövlətçilik İnstitutunun ən layiqli aparıcısı, modernləşən yeni Azərbaycanın qurucusu Qarabağda işğal altında olan torpaqların azad edilməsində xalq-dövlət-ordu birliyi nəticəsində Zəfər çalan Qalib Prezidenti İlham Əliyevdir.Ulu Öndər Heydər Əliyev ideyaları, bitkin siyasi praqmatizmi, insan rifahına söykənən sosial siyasətinin həyata keçirilməsi dövlət quruculuğunun siyasi fəlsəfi və dövlətçilik nəzəriyyəsidir. Bu siyasi fəlsəfə Ulu Öndər Heydər Əliyev, Milli İnkişaf strategiyasının nəzəri, təcrübi konsepsiyasıdır və onu da uğurlu davam etdirən Prezident İlham Əliyevdir.

...Heydər Əliyev nailiyyətləri və qələbələri Azərbaycanın tarixində və Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq və gələcək nəsillər üçün mərdlik, müdriklik və vətənpərvərlik nümunəsi olacaqdır”.

***Azərbaycanın Birinci vitse-prezidenti Xanım Mehriban Əliyevanın Ulu Öndər Heydər Əliyev haqqında xatirələrindən***